**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**

**Q Ə R A R**

**№ 2**

**Bakı şəhəri** **13 aprel 2022-ci il**

Apellyasiya Şurası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini - Apellyasiya Şurasının sədri Vahab Feyruz oğlu Məmmədovun sədrliyi ilə Adil Müslüm oğlu Rəşidlinin Dövlət Statistika Komitəsi aparatında İnformasiya texnologiyaları şöbəsinin Sistem təminatı və texniki xidmət sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2022-ci il mart ayının 02-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Rəşidli Adil Müslüm oğlu Dövlət Statistika Komitəsi aparatında İnformasiya texnologiyaları şöbəsinin Sistem təminatı və texniki xidmət sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2021-ci il dekabr ayının 27-də elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2022-ci il mart ayının 02-də Dövlət Statistika Komitəsinin İnformasiya texnologiyaları şöbəsinin müdiri Çimnaz Əliyeva, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Rasim Mahmudov və müstəqil ekspert Ruslan Məmmədovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Rəşidli Adil Müslüm oğluna müsahibə komissiyasının üzvlərindən R. Məmmədov 12 bal, R.Mahmudov 11 bal, Ç. Əliyeva 10 bal vermiş və nəticədə iştirakçı 11 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 09.03.2022-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən müsahibə komissiyasının üzvləri tərəfindən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Rəşidli Adil Müslüm oğlunun 09 mart 2022-ci il tarixli apellyasiya şikayəti təmin edilməsin və Dövlət Statistika Komitəsi aparatında İnformasiya texnologiyaları şöbəsinin Sistem təminatı və texniki xidmət sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2022-ci il mart ayının 02-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.

2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.

3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına şikayət verilə bilər.

**Sədr** **Vahab Məmmədov**